**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm:
Tədris məsələləri üzrə prorektor v.i.e:
________ dos. Zaur Məmmədov
"____" ______ 2025-ci il

**Fənn sillabusu**

**İxtisas: 6004004- "İqtisadiyyat"**
**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı: "İnkişaf iqtisadiyyatı"** (İşçi tədris proqramı: Kafedranın 22 dekabr 2025-ci il tarixli 04 saylı protokolu ilə təsdiq edilmişdir).
**Fənnin kodu:** IPF-B12
**Tədris ili:** I (2025-2026). Semestr: II
**Tədris yükü cəmi**:40 saat. Auditoriya yükü-14 saat:(Mühazirə 10 saat;məşğələ 4 saat).
**Təhsilalma forması:** Qiyabi
**AKTS üzrə kredit:** 4
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmidərəcəsi:** *m. Mirzəzadə Barat İsmayıl*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a
**Məsləhət saatı:** II-V günlər: saat $14^{00}$-$16^{00}$
**E-mail ünvanı**: baratmirzezade24@gmail.com
**III.Tövsiyyə olunan dərsliklər və dərs vəsaitləri:**

1. N.Q.Menkyu. "Ekonomiksin prinsipləri". Dərslik. Bakı, 2009
2. İzahlı iqtisadi terminlər lüğəti.1-ci cild ." NURLAN" nəşriyyatı.Bakı.536 səh.2005.
3. İzahlı iqtisadi terminlər lüğəti. 2-ci cild. "NURLAN" nəşriyyatı. Baki.546 səh.2005.
4. Atakişiyev Müşfiq. Mikro və Makroiqtisadiyyat. Bakı 2010.
5.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
6. Arif Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı-2011.
7.Hüseynova X.M. Regional inkişaf proqramları: nəzəri və praktiki məsələlər. Monoqrafiya. Bakı. 2010.
8.Əlirzayev Ə. Q. «İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyillər və perspektiv istiqamətlər» Bakı-2005
9.M.Dikkaya, D.Özyakışır. "Ekonominin temelleri". Ankara-2018.
10.Макконнелл К.Р.БРЮС.Л.14 издание . Экономикс. Москва: Инфа-М. 2005

**IV. Prerekvizitlər:** Bu fənnin tədrisi üçün ilkin olaraq "Karyera planlaması" fənninin tədrisi zəruridir.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "İqtisadiyyata giriş" fənninin tədrisinə ehtiyac vardır.

**VI. Fənnin təsviri və məqsədi:** İnkişaf iqtisadiyyatı inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi problemlərini, yoxsulluğun səbəb və nəticələrini, iqtisadi artımın mənbələrini, struktur dəyişikliklərini və institusional amillərin rolunu öyrənən iqtisadiyyat sahəsidir. Bu fənn gəlir bölgüsü, məşğulluq, insan kapitalı, texnoloji tərəqqi, dövlət siyasəti və qlobal iqtisadi münasibətlərin inkişaf prosesinə təsirini nəzəri və praktik baxımdan təhlil edir.

İnkişaf iqtisadiyyatının əsas məqsədi ölkələrin davamlı iqtisadi və sosial inkişafına nail olmaq üçün effektiv siyasət və strategiyaların formalaşdırılmasını izah etməkdir. Fənn tələbələrə iqtisadi geriliyin səbəblərini anlamağı, inkişaf modellərini müqayisə etməyi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması və rifahın yüksəldilməsi istiqamətində elmi əsaslandırılmış yanaşmalar təqdim etməyi hədəfləyir.

**VII. Davamiyyətə verilən tələblər:** : Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |

| | | | |
|---|---|---|---|
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X. Təqvim planı**: *Mühazirə 10 saat, məşğələ 4 saat .* ***Cəmi 14 saat***

| N | Keçirilən mühazirə mövzularının məzmunu | Mühazirə | | Seminar | |
|---|---|---|---|---|---|
| | | saat | tarix | saat | tarix |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | **Mövzu 1. Dayanıqlı iqtisadi inkişafın xüsusiyyətləri və nəzəri əsasları. Dayanıqlı iqtisadi inkişafda dayanıqlılığın təmin olunması mexanizmi. Dayanıqlı inkişafın təmin edilməsində xarici iqtisadi əlaqələrin rolunun artırılması yolları**<br>**Plan:**<br>1. Milli iqtisadiyyatın sabit inkişafının mahiyyəti və prinsipləri<br>2. Dayanıqlı inkişafa dair nəzəri baxışlar və onların təkamülü<br>3. Dayanıqlı inkişafın sosial-iqtisadi aspektləri<br>4. Dayanıqlı iqtisadi inkişafın təmin olunması amilləri və onların təsnifatı<br>5. Azərbaycanın dayanıqlı iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin rolu<br>6. Xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinin milli iqtisadi inkişafa təsiri<br>7. Azərbaycanın ixrac potensialı və onun təkmilləşdirilməsi istiqamətləri<br>8. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin olunması<br>9. Ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsində rəsmi ehtiyatların rolu | 2 | | 2 | |
| 2 | **Mövzu 2. Azərbaycan milli iqtisadiyyatının mövcud vəziyyəti və iqtisadi artım mərhələləri. Milli iqtisadiyyatın davamlı inkişafının əsas məqsədləri, vəzifələri və təmin edilməsi problemləri.**<br>**Plan:**<br>1. Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti<br>2. İqtisadi artım mərhələləri onların mahiyyəti<br>3. Sıçrayışlı artım dövrü,onun təhlili<br>4. Yüksək iqtisadi artımın təmin edilməsi<br>5. İqtisadi vəziyyətin yekun qiymətləndirməsi və iqtisadi prespektivlər<br>6. Milli iqtisadiyyatın davamlı inkişafının əsas məqsədləri, vəzifələri və təmin edilməsi problemləri<br>7. Davamlı inkişaf konsepsiyasının formalaşması<br>8. İqtisadi inkişaf modelinin əsas strateji məqsədləri | 2 | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | 9. Milli İnkişaf modeli | | | | |
| 3 | **Mövzu 3. Azərbaycanda strateji inkişafın aspektləri üzrə hədəf indiqatorları,məqsədlər və strateji hədəflər. Bazar mexanizmləri: dövlət və özəl sektor arasında qarşılıqlı asılılıqlar. İnkişaf iqtisadiyyatının təkamülü: faktorlar və mexanizmlər**<br>**Plan:**<br>1. Strateji inkişafın aspektləri üzrə hədəf indiqatorları<br>2. Strateji inkişafın əsas məqsədləri<br>3. Milli iqtiadiyyatın inkişafının strateji hədəfləri<br>4.Azərbaycanda innovasiya infrastrukturlarının reallaşdırılması mərhələləri<br>5.Dövlət-özəl sektor tərəfdaşlıq əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri<br>6.İqtisadiyyatın inkişafı və sistem analizi<br>7.İqtisadi sistemin tərkibi problemləri<br>8.Bazar iqtisadiyyatının yüksəlməsi | 2 | | | |
| 4 | **Mövzu 4 . Milli Prioritetlər — yeni inkişafın yol xəritəsi. İqtisadi inkişafın təməl prinsipləri: insan kapitalı, investisiya, maddi resurslar və texnologiya. İnkişaf iqtisadiyyatı və rifahın yaxşılaşmasına xidmət edən iqtisadi, sosial, siyasi və institusional məsələlər**<br>**Plan:**<br>1. Rəqabətli insan kapitalı iqtisadi inkişaf üçün əsas şərt kimi<br>2. Əmək məhsuldarlığı iqtisadi artımın əsas amili kimi<br>3. İnsan kapitalının potensialının artırılmasının mütərəqqi təhsillə şərtləndirilməsi<br>4. İnsan kapitalının inkişafı<br>5. Ticarət, investisiya mühiti və özəl sektorun inkişafı<br>6. İqtisadi resurslar və onların növləri<br>7. Maddi-texniki resursların təsnifatı<br>8. Stabillik və iqtisadi inkişaf<br>9. Sosial yönümlülük və ədalət<br>10. İnnovativlik və modernləşmə | 2 | | 2 | |
| 5 | **Mövzu 5. İqtisadi inkişaf və iqtisadi artım: formal və qeyri-formal institutlar. Modernləşmə-Sənayeləşmə-İnkişaf əlaqələri. Ölkələrin iqtisadi inkişaf göstəriciləri**<br>**Plan:**<br>1.İnstituların iqtisadi artımda rolu: nəzəri yanaşmalar<br>2.Formal institutların iqtisadi artımda rolu<br>3.Modernləşmə iqtisadi sistemin təkmilləşdirmə üsulu kimi<br>4. Modernləşmə və sivilizasiyalararası fərqlərin azaldılması yolları<br>5. Modernləşmədə dəyərlər sisteminin rolu<br>6.Ölkələrin iqtisadi inkişaf göstəriciləri və onların xarakteristikası. | 2 | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | 7. Dünya ölkələrinin qlobal indeks və reytinqlərlə dəyərləndirilməsi<br>8.Qlobal indeksləşmələr kontekstində Azərbaycanın dünya dövlətləri təsnifatında mövqeyi | | | | |
| | **Cəmi:** | **10** | | **4** | |

**XI. Fənn üzrə tələblər:** "İnkişaf iqtisadiyyatı"fənni üzrə tələbələrdən əsas iqtisadi anlayış və nəzəriyyələri mənimsəmək, sosial-iqtisadi problemləri analitik şəkildə təhlil etmək, statistik məlumatlardan istifadə edərək əsaslandırılmış nəticələr çıxarmaq, inkişaf strategiyalarını və dövlət siyasətlərini praktik nümunələr üzərində tətbiq etmək, elmi mənbələrlə işləmək, iqtisadi terminologiyanı düzgün istifadə etmək, eləcə də seminar və müzakirələrdə fəal iştirak etmək tələb olunur.

**XII. Fənn üzrə təlimin nəticələri:** Kursu uğurla tamamlayan tələbələr sonda aşağıdakı bacarıqlara yiyələnəcəklər:

- İnkişaf iqtisadiyyatının ortaya çıxma zərurətini bilmək;
- İnkişaf iqtisadiyyatının mikro və makro səviyyəli amillərini təhlil edə bilmək;
- İqtisadi inkişafın ən vacib nəzəriyyələrini bilmək, faktları və siyasətləri təhlil edə bilmək;
- Ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaq;
- İnkişaf səviyyəsinə uyğun iqtisadi siyasət təkliflərini verə bilmək;
- Dayanıqlı inkişaf konsepsiyasının iqtisadi, sosial və ekoloji aspektlərini mənimsəmək.

**XIII.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:** ____________________

**XIV: Kollokvium sualları:**

1. Milli iqtisadiyyatın sabit inkişafının mahiyyəti və prinsipləri
2. Dayanıqlı inkişafa dair nəzəri baxışlar və onların təkamülü
3. Azərbaycanın ixrac potensialı və onun təkmilləşdirilməsi istiqamətləri
4. İqtisadi artım mərhələləri onların mahiyyəti
5. İqtisadi inkişaf modelinin əsas strateji məqsədləri
6. Milli iqtiadiyyatın inkişafının strateji hədəfləri
7. Azərbaycanda innovasiya infrastrukturlarının reallaşdırılması mərhələləri
8. Dövlət-özəl sektor tərəfdaşlıq əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri
9. İnsan kapitalının inkişafı
10. İqtisadi resurslar və onların növləri

**XV. İmtahan sualları:**

1. Milli iqtisadiyyatın sabit inkişafının mahiyyəti və prinsipləri
2. Dayanıqlı inkişafa dair nəzəri baxışlar və onların təkamülü
3. Dayanıqlı inkişafın sosial-iqtisadi aspektləri
4. Dayanıqlı iqtisadi inkişafın təmin olunması amilləri və onların təsnifatı
5. Azərbaycanın dayanıqlı iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin rolu
6. Xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinin milli iqtisadi inkişafa təsiri
7. Azərbaycanın ixrac potensialı və onun təkmilləşdirilməsi istiqamətləri
8. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin olunması
9. Ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsində rəsmi ehtiyatların rolu
10. Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti
11. İqtisadi artım mərhələləri onların mahiyyəti

12. Yüksək iqtisadi artımın təmin edilməsi
13. Davamlı inkişaf konsepsiyasının formalaşması
14. İqtisadi inkişaf modelinin əsas strateji məqsədləri
15. Milli İnkişaf modeli
16. Strateji inkişafın əsas məqsədləri
17. Milli iqtiadiyyatın inkişafının strateji hədəfləri
18. Azərbaycanda innovasiya infrastrukturlarının reallaşdırılması mərhələləri
19. Dövlət-özəl sektor tərəfdaşlıq əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri
20. Rəqabətli insan kapitalı iqtisadi inkişaf üçün əsas şərt kimi
21. Əmək məhsuldarlığı iqtisadi artımın əsas amili kimi
22. İnsan kapitalının potensialının artırılmasının mütərəqqi təhsillə şərtləndirilməsi
23. İnsan kapitalının inkişafı
24. Ticarət, investisiya mühiti və özəl sektorun inkişafı
25. İqtisadi resurslar və onların növləri
26. Maddi-texniki resursların təsnifatı
27. Stabillik və iqtisadi inkişaf
28. Sosial yönümlülük və ədalət
29. İnnovativlik və modernləşmə
30. İnstituların iqtisadi artımda rolu: nəzəri yanaşmalar
31. Formal institutların iqtisadi artımda rolu
32. Modernləşmə iqtisadi sistemin təkmilləşdirmə üsulu kimi
33. Modernləşmədə dəyərlər sisteminin rolu
34. Ölkələrin iqtisadi inkişaf göstəriciləri və onların xarakteristikası
35. Dünya ölkələrinin qlobal indeks və reytinqlərlə dəyərləndirilməsi

"İnkşaf iqtisadiyyatı" fənninin sillabusu 6004004- "İqtisadiyyat" ixtisası üzrə tədris planı və işçi tədris proqramı əsasında tərtib edilmişdir.

Sillabus *"İqtisadiyyat və innovativ idarəetmə"* kafedrasında müzakirə edilərək təsdiq olunmuşdur (22 dekabr 2025-ci il tarixli, protokol №4).

**Kafedra müdiri v.i.e. :** dos. G.T.Əliyeva

**Fənn müəllimi:** müəl. B.İ.Mirzəzadə